*PAULUN*

# TİMOTEYƏ İKİNCİ MƏKTUBU

## GİRİŞ

Paul *«Timoteyə İkinci Məktubu»*nda öz gənc həmkarı və əməkdaşı olan Timoteyə çoxlu məsləhətlər verir. Əsas mövzu dözümdür. Paul Timoteyi İsa Məsihin Müjdəsini sədaqətlə vəz etməyə çağırır. Həm də o, Müjdənin və Əhdi-Ətiqin təliminə sadiq qalmağa ruhlandırır. Həvari öz gənc həmkarına tövsiyə edir ki, çəkdiyi iztirabların, rastlaşdığı müqavimətlərin heç birinə əhəmiyyət vermədən müjdəçilik və müəllimlik işini davam etdirsin.

Paul Timoteyə xüsusi məsləhət verir: «Axmaq və cahil mübahisələrdən uzaq ol. Çünki bunların dava-dalaşa səbəb olmasını bilirsən» (2:23). Bütün bunların hamısını yekunlaşdıraraq Paul öz həyatını və məqsədini nümunə göstərərək iman, məhəbbət, dözümə və təqiblərdə əzablara səbirli olmağa çağırır.

**Kitabın məzmunu:**

1:1-2:13 Salamlar və tövsiyələr
2:14-4:5 Məsləhət və xəbərdarlıq
4:6-18 Paulun düşdüyü vəziyyət barəsində
4:19-22 Xudahafizləşmə

# 1

1 *Məsih İsada olan həyat vədinə görə Allahın iradəsi ilə Məsih İsanın
həvarisi mən Pauldan
2 mənə sevimli oğul olan Timoteyə salam! Ata
Allahdan və Rəbbimiz Məsih İsadan sənə lütf, mərhəmət və sülh olsun!

### Müjdəyə sadiq qalmaq

3 Durmadan, gecə-gündüz dualarımda səni yada saldığım zaman ata-
babalarım kimi təmiz vicdanla ibadət etdiyim Allaha şükür edirəm.
4 Sənin
göz yaşlarını xatırlayaraq səni görməyə həsrət çəkirəm ki, sevinclə dolum.
5 *Səndəki riyasız imanı yadıma salıram. Əvvəlcə nənən Lois və anan
Evnikinin saxladığı bu imanı, əminəm ki, sən də saxlayırsan.
6 Bu səbəbdən
sənin üzərinə əl qoymağımla Allahın sənə verdiyi ənamı alovlandırmağını
xatırladıram.
7 Çünki Allah bizə qorxaqlıq ruhu deyil, güc, məhəbbət və

---

*__1:1-2__ Həv. 16:1
*__1:5__ Həv. 16:1

ağıllı-kamallı olmaq ruhu vermişdir. [8] Buna görə Rəbbimiz barədə şəhadət
etməkdən və Onun uğrunda məhbus olan məndən utanma. Allahın gücü ilə
Müjdə uğrunda mənimlə birlikdə əzaba qatlaş. [9] Allah bizi əməllərimizə görə
deyil, öz məqsədinə və lütfünə görə xilas edib müqəddəs olmağa çağırdı.
Zaman başlamazdan əvvəl o lütf bizə Məsih İsada verilmişdi, [10] indi isə
Xilaskarımız Məsih İsanın zühuru ilə üzə çıxdı. O, ölümü yox etdi, Müjdə
vasitəsilə həyatı və ölməzliyi aşkar etdi. [11] [*]Mən bu Müjdə üçün vaiz, həvari
və müəllim[a] təyin olundum. [12] Bu əzabları çəkməyimin səbəbi də budur.
Amma bundan utanmıram, çünki Kimə iman etdiyimi bilirəm və əminəm ki,
mənə verdiyi əmanəti qiyamət gününə[b] qədər saxlamağa qadirdir. [13] Məsih
İsada olan iman və məhəbbətlə məndən eşitdiyin sağlam sözlərdən nümunə
götür. [14] Sənə verilən yaxşı əmanəti bizdə yaşayan Müqəddəs Ruh vasitəsilə
saxla.
[15] Bilirsən ki, Asiya vilayətində olanların hamısı məndən üz döndərdi.
Həmçinin Figel və Hermogen də bunların sırasındadır. [16] Rəbb Onisiforun ev
əhlinə mərhəmət etsin. Çünki dəfələrlə məni ruhlandırdı, mənim
zəncirlənməyimdən utanmadı. [17] Əksinə, Romada olarkən məni səylə axtarıb
tapdı. [18] Qoy Rəbb qiyamət günü[c] ona mərhəmət tapmağa imkan versin.
Efesdə onun mənə nə qədər xidmət etdiyini sən çox yaxşı bilirsən.

# 2

### Məsih uğrunda əziyyətə dözmək

[1] Sənsə, ey oğlum, Məsih İsada olan lütflə güclən. [2] Bir çox şahidlərin
önündə məndən eşitdiyin sözləri başqalarına da öyrətməyə qadir olan sadiq
adamlara həvalə et. [3] Məsih İsanın yaxşı əsgəri kimi mənimlə birgə əzaba
qatlaş. [4] Əsgərlik edən insan gündəlik həyatla bağlı işlərə sürüklənməz, ona
əmr edən zabiti razı salmağa çalışar. [5] Həmçinin yarışlara qoşulan insan da
qaydaya görə yarışmazsa, başına zəfər çələngi qoyulmaz. [6] Zəhmətkeş
əkinçinin payına məhsulunun ilk bəhrəsi düşməlidir. [7] Dediklərimə fikir ver.
Rəbb söylədiyim hər şeydə sənə anlayış verəcək.
[8] Yaydığım Müjdədə açıqlandığı kimi, Davudun nəslindən olub ölülər
arasından dirilən İsa Məsihi yadında saxla. [9] Bu Müjdə naminə zəncirə
vurulmuş bir cinayətkar kimi əzaba qatlaşıram. Amma Allahın kəlamı
zəncirlənməmişdir. [10] Bu səbəbdən seçilmişlərə görə, onlar da Məsih İsada

---

[*]**1:11** 1Tim. 2:7

[a]**1:11** *Müəllim* – bəzi əlyazmalarda *millətlərin müəllimi.*

[b]**1:12** *Qiyamət gününə* – hərfi tərcümədə *o günə.*

[c]**1:18** *Qiyamət günü* – hərfi tərcümədə *o gün.*

olan xilasa əbədi izzətlə bərabər nail olsunlar deyə hər şeyə dözürəm. 11 Bu
söz etibarlıdır ki,

«Əgər Onunla öldüksə,
Onunla da yaşayacağıq;
12 *Əgər dözəriksə,
Onunla da birlikdə padşahlıq edəcəyik.
Əgər Onu inkar etsək,
O da bizi inkar edəcək.
13 Biz sadiq qalmasaq da,
O sadiq qalacaq.
Çünki Öz təbiətinə zidd davrana bilməz».

### Sınaqdan keçmiş işçi

14 Bunları imanlıların yadına sal. Sözlərin mənası barədə dava etməməyi
Allahın önündə onların öhdəsinə qoy; çünki bu fayda verməz, dinləyənlərə
isə ziyan vurar. 15 Özünü Allaha sınaqdan keçmiş, həqiqət kəlamını
doğruluqla işlədən alnıaçıq bir işçi kimi təqdim etməyə çalış. 16 Allahsız
boşboğazlıqdan uzaq dur. Çünki belə boşboğazlıqlar insanı daha da
allahsızlığa aparır. 17 Onların sözü irinli yara kimi yayılacaq. Himeney və
Filit onların sırasındadır. 18 Onlar dirilmənin artıq baş verdiyini deyərək
həqiqətdən azıb bəzilərinin imanını alt-üst edirlər. 19 Lakin Allahın atdığı
möhkəm təməl bu sözlərlə möhürlənib durur: «Rəbb Özününküləri tanıyır»
və «Rəbbin adını ağzına alan hər kəs haqsızlıqdan uzaqlaşsın».
20 Böyük bir evdə yalnız qızıl və gümüş qablar deyil, həmçinin taxta və gil
qablar da var. Onlardan bəzisi şərəfli, bəzisi də şərəfsiz iş üçün istifadə
olunur. 21 Beləliklə, kim özünü şərəfsiz işlərdən təmizləsə, şərəfli işlərə
uyğun, təqdis olunmuş, Sahibinə faydalı, hər yaxşı iş üçün hazırlanmış qab
olacaq.
22 Gənclik ehtiraslarından qaç. Təmiz ürəklə Rəbbi çağıranlarla birlikdə
salehliyin, imanın, məhəbbətin və sülhün ardınca get. 23 Axmaq və cahil
mübahisələrdən uzaq ol. Çünki bunların dava-dalaşa səbəb olmasını bilirsən.
24 Rəbbin qulu davakar olmamalıdır. Əksinə, hamı ilə mülayim rəftar etməli,
öyrətməyə qabil, səbirli olmalıdır. 25 Ona qarşı olanları həlimliklə tərbiyə
etməlidir. Bəlkə Allah onlara tövbəyə imkan verəcək. Beləliklə, onlar
həqiqəti anlayar, 26 ayıq ola bilərlər və istəyini yerinə yetirmək üçün onları
əsir edən iblisin torundan çıxarlar.

## 3

---

*__2:12__ Mat. 10:33; Luka 12:9

## Axır zamanda

[1] Bunu bil ki, bu axır zamanda çətin dövrlər olacaq. [2] Çünki insanlar
xudbin, pulpərəst, təkəbbürlü, məğrur, təhqir edən, valideynlərinə itaət
etməyən, nankor, müqəddəslikdən məhrum, [3] şəfqətsiz, barışmaz, böhtançı,
nəfsini saxlamayan, rəhmsiz, yaxşılığın düşməni, [4] xain, ehtiyatsız, qürurlu
olacaq, Allahdan çox kef çəkməyi sevəcəklər. [5] Mömin kimi görünüb bu
yolun gücünü inkar edəcəklər. Bu cür adamlardan uzaq dur. [6] Bunların
arasında evlərə soxulub zəif iradəli qadınları əsir edən adamlar var. Belə
qadınlar günahla yüklənmiş müxtəlif ehtiraslarla sövq edilir, [7] daima öyrənir,
amma həqiqəti heç zaman anlaya bilmirlər. [8] [*]Yannis və Yambris Musaya
necə zidd getdilərsə, bu adamlar da eləcə həqiqətə zidd gedirlər. Onlar
düşüncələri pozğun, imanları sınaqdan keçməmiş insanlardır. [9] Amma daha
irəli gedə bilməyəcəklər. Çünki Yannislə Yambrisin axmaqlığı kimi bunların
da axmaqlığını hamı açıqca görəcək.

## Timoteyə son öyüdlər

[10] [*]Sənsə mənim təlimimi, davranışımı, məqsədimi, imanımı, səbrimi,
məhəbbətimi, dözümümü, [11] Antakyada, Konyada, Listrada başıma gələn
təqibləri, çəkdiyim əzabları diqqətlə izlədin. Nə cür təqiblərə qatlandım!
Amma Rəbb məni bunların hamısından xilas etdi. [12] Məsih İsada möminliyə
yaraşan bir həyat sürmək istəyənlərin hamısı təqibə məruz qalacaq. [13] Amma
pis adamlar və saxtakarlar aldadıb-aldanaraq getdikcə daha betər olacaqlar.
[14] Sənsə öyrəndiyin və güvəndiyin şeylərə sadiq qal. Çünki bunları
kimlərdən öyrəndiyini bilirsən, [15] Müqəddəs Yazıları uşaqlıqdan bilirsən.
Onlar Məsih İsaya olan iman vasitəsilə sənə xilas gətirən hikmət verməyə
qadirdir. [16] Bütün Müqəddəs Yazılar Allahdan ilham almış və təlim,
məzəmmət, islah, salehlik tərbiyəsi üçün faydalıdır; [17] beləcə Allah adamı
bacarıqlı olub hər yaxşı iş üçün təchiz edilsin.

# 4

[1] Allahın və dirilərlə ölüləri mühakimə edəcək Məsih İsanın önündə Onun
zühuru və Padşahlığının haqqı üçün sənə buyururam ki, [2] Allahın kəlamını
vəz edəsən, hansı vaxt olursa-olsun hazır olasan, insanlara tam səbirlə təlim
öyrədərək məzəmmət, xəbərdarlıq və nəsihət verəsən. [3] Çünki elə bir zaman
gələcək ki, sağlam təlimə dözməyəcəklər. Qulaq oxşayan sözlər eşitmək
üçün ətraflarına öz ehtiraslarına uyğun müəllimlər toplayacaqlar.
[4] Qulaqlarını həqiqətdən döndərəcək, əfsanələrə meyl göstərəcəklər. [5] Amma

---

[*]**3:8** Çıx. 7:11
[*]**3:10-11** Həv. 13:14-14:20

sən hər vəziyyətdə ayıq ol. Əzaba qatlaş, müjdəçilik işini yerinə yetir, öz
xidmətinə tam əməl et.
6 Çünki qanım artıq içmə təqdimi kimi tökülmək üzrədir. Artıq ayrılma
zamanım gəldi. 7 Mən yaxşı mübarizə aparmışam, yolumu sona çatdırdım,
imanı saxladım. 8 İndi salehlik tacı mənim üçün hazır durur. Ədalətli Hakim
olan Rəbb qiyamət günü[d] onu mənə – yalnız mənə deyil, Onun zühuruna can
atanların hamısına verəcək.

### Şəxsi ricalar və salamlar

9 Yanıma tez gəlməyə çalış. 10 *Çünki Dima indiki dövrü sevdiyi üçün məni
tərk edib Salonikə getdi. Kreskent Qalatiyaya, Tit isə Dalmatiyaya getdi.
11 *Yalnız Luka yanımdadır. Markı da götür özünlə gətir, çünki o etdiyim
xidmətdə mənə yardım edir. 12 *Tixiki isə Efesə göndərdim. 13 *Troasda
Karpın yanında qoyduğum yapıncını, kitabları, xüsusən, yazılı dəriləri də
gələndə gətir.
14 *Misgər İsgəndər mənə çox pislik etdi. Rəbb ona əməllərinin əvəzini
verəcək. 15 Sən də ondan özünü gözlə. Çünki söylədiklərimizə ciddi-cəhdlə
zidd getdi.
16 Mən ilk dəfə müdafiə olunanda heç kim mənə tərəfdar çıxmadı, hamı
məni tərk etdi. Qoy onlara günah sayılmasın. 17 Lakin Rəbb köməyimə gəlib
mənə güc verdi ki, vəz mənim vasitəmlə tam elan edilsin və onu bütün
millətlər eşitsin. Mən aslanın ağzından xilas oldum. 18 Rəbb məni hər cür pis
əməldən qurtaracaq və Öz Səmavi Padşahlığı üçün xilas edəcək. Ona əbədi
olaraq izzət olsun! Amin.
19 *Priskila ilə Akilaya və Onisiforun ev əhlinə salam söylə.
20 *Erast Korinfdə qaldı. Trofimi isə xəstə halda Miletdə qoydum. 21 Çalış
ki, qışdan əvvəl gələsən. Evvul, Pudent, Lin, Klavdiya və bütün bacı-
qardaşlar sənə salam göndərir.
22 Rəbb sənin ruhuna yar olsun! Sizə lütf olsun!

---

[d]**4:8** *Qiyamət günü* – hərfi tərcümədə *o gün.*

*__4:10__ 2Kor. 8:23; Qal. 2:3; Kol. 4:14; Titə 1:4; Fil. 23-24

*__4:11__ Həv. 12:12,25; 15:37-39; Kol. 4:10,14; Fil. 23-24

*__4:12__ Həv. 20:4; Ef. 6:21-22; Kol. 4:7-8

*__4:13__ Həv. 20:6

*__4:14__ Zəb. 62:12; Rom. 2:6; 1Tim. 1:20

*__4:19__ Həv. 18:2-3; 2Tim. 1:16-17

*__4:20__ Həv. 19:22; 20:4; 21:29; Rom. 16:23-24